# Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə TÜRKPA arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb

**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 23-də TÜRKPA-nın Baş katibi Süreyya Eri qəbul edib.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker bildirib ki, Azərbaycan Milli Məclisi TÜRKPA yarandığı dövrdən bu təşkilatla əməkdaşlığa önəm verib və təşkilatın fəaliyyətinə diqqət və qayğı göstərib. Onun sözlərinə görə, TÜRKPA-nın fəaliyyəti dövlətlərimiz və xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin daha da genişləndirilməsinə xidmət edir. Qeyd olunub ki, Milli Məclis TÜRKPA-ya üzv olan ölkələrin qanunverici orqanları ilə geniş əməkdaşlıq əlaqələrinə malikdir və ötən dövr ərzində təşkilata üzv parlamentlər arasında əməkdaşlıq daha da inkişaf edib.

Milli Məclisin Sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti barədə danışaraq deyib ki, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi mühüm təşəbbüsləri beynəlxalq birlik tərəfindən dəstəklənir. Dövlət başçısının təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə beynəlxalq maraq getdikcə daha da artır. Parlament Şəbəkəsi üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsinə imkan verən yaxşı platformadır. O, şəbəkənin 2021-ci ildə Madriddə keçirilən təsis, ötən il Bakıda keçirilən birinci konfransları, həmçinin Manamada keçirilməsi nəzərdə tutulan ikinci konfransına hazırlıq məqsədilə görülən işlər barədə məlumat verib. Spiker TÜRKPA-nın həm təsis, həm də birinci konfransda təmsil olunmasını yüksək qiymətləndirib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Parlament Şəbəkəsi beynəlxalq parlament təşkilatları ilə də əməkdaşlığı genişləndirir. Hazırda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi 3 beynəlxalq parlament təşkilatında müşahidəçi statusu alıb. Bunlar Asiya Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı və Ərəb Parlamentidir.

Göstərilən yüksək diqqətə və təşkilata verilən dəstəyə görə Milli Məclisin Sədrinə minnətdarlığını bildirən TÜRKPA-nın Baş katibi Süreyya Er Katibliyin fəaliyyəti haqqında geniş məlumat verib. O, həmçinin TÜRKPA-nın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əməkdaşlığa da böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Görüşün sonunda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə TÜRKPA arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Sənədi Milli Məclisin və Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarova və TÜRKPA-nın Baş katibi Süreyya Er imzalayıblar.

*"Azərbaycan"*